**DÜNYA KİNOSUNUN 100 İLLİYİNƏ HƏSR OLUNMUŞ "FESTİVALLAR FESTİVALI"NIN KEÇİRİLMƏSİ HAQQINDA**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Dünya kinosunun 100 illik yubileyinin qeyd olunmasının Azərbaycan Respublikasının mədəni həyatı üçün əhəmiyyətini nəzərə alaraq və Müstəqil Dövlətlər Birliyi milli kinematoqrafçılarının birgə tədbirlər planının yerinə yetirilməsi məqsədi ilə **qərara alıram:**

1. Dünya kinosunun 100 illiyinə həsr olunmuş "Festivallar festivalı" 1998-ci ilin aprel-may aylarında Bakı şəhərində keçirilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 20 fevral 1998-ci

№ 744